


*Şamil ƏHMƏDLİ (Əhmədov Şamil Məhəmməd oğlu) "Yovşan qoxusu" (həyat hekayətləri, publisistik qeydlər, mahnı mətnləri) Bakı-2022. 268 səhifə.*

*Şamil Əhmədlinin "Yovşan qoxusu" adı ilə oxuculara təqdim olunan kitabına müəllifin qələmə aldığı canlı həyat hekayətləri, publisistik qeydləri və mahnı mətnləri daxil edilmişdir. Yazıların canlılığı cəlbedici üslubda qələmə alınması oxucu marağını təmin edir. Kitabda həm də müəllifin yaxın dostlarının onun haqqındakı təəssüratları, münasibət-rəylərini əks etdirən yazılar da yer almışdır.*

*Ş.Əhmədli tanınmış xanəndədir. İctimai mühitdə mənəvi keyfiyyətləri ilə həmişə diqqəti cəlb edib. Onun haqqında yazılmış və mənəvi mühitini əks etdirən "Gəl gedək yurda sarı" (Əli Rza Xələfli) bayatı-poemanın da maraqla oxunacağına inanırıq.*

# ŞAMİL ƏHMƏDLİNİN "YOVŞAN QOXUSU" KİTABININ TƏQDİMATINDA...



Azərbaycan mənəvi mühitinin çox görkəmli simaları bu tədbirdə iştirak edirdi... Kitabda Şamil Əhmədlinin canlı hekayətləri və mahnı mətnləri, publisistik yazıları yer alıb...

Mənim üçün xoşdur ki, kitabı redaktə etmişəm... ön söz yazmışam...bu kitabda görkəmli elm və ədəbiyyat , sənət xadimləri Ramiz Rövşənin, Qulu Məhərrəmlinin, Ramiz Həsənoğlunun, Rafiq Əliyevin, Rəşad Məcidin, Xamis Muradovun... və digərlərinin Şamil Əhmədli haqqında qeydləri də oxuculara çatdırılıb...

Bu kitabda mənim Şamil Əhmədlinin həyatını, mənəvi mühitini, yaradıcılığını bədii düşüncə müstəvisində göstərən "Gəl gedək yurda sarı" bayatı poemamdan da birinci üç hissə yer alıb... Müəlif üçün ilk nəşr nümunəsi olsa da Yovşan qoxusu"nda Şamil Əhmədli oxuculara təqdim etdiyi canlı hekayətləri ilə canlı dili ədəbiyyata xüsusi məharətlə gətirən bir söz ustadı kimi də özünü təsdiq edib...

Zəngin mənəvi mühiti ilə seçilən tədbirdə iştirakçılara kitabın bədii məziyyətləri, struktur xüsusiyyətləri və əlbəttə çox maraqlı məzmunu haqqında əhatəli məlumat vermək mənim ixtiyarımda oldu...

Qarabağ taleyi Şamilin də taleyindən keçib. Ağrısı, acısı ilə Şamilin yaddaşında iz qoyub. El sənətkarı xalq adamı kimi Şamil ömrünün bir qərinəsini də Qarabağ dərdi ilə yaşayıb. Axır ki, bir zaman gəlib, söz də Şamilin varlığında özünə yer istəyib. Yaddaşında örtülü xəzinə kimi Qarabağdan, el-oba içindən toplanıb qalmış canlı əhvalatları yazıya gətirib.

Tədbirdə kitabın rəyçiləri xalq şairi Ramiz Rövşən, professor Qulu Məhərrəmli, məsləhətçi professor Rafiq Əliyev... kitabın hazırlanmasında mənəvi dəstəklərini əsirgəməyən bu adları çəkilənlərdən başqa Ramiz Hədənoğlunun, Rəşad Məcidin, Teyfurun, Musa İsmayılovun... və digərlərinin çıxışları da maraqla dinlənildi... Təqdimatda Əməkdar artistlər - Səbuhi İbayev, Xəyyam Məmmədov... üçlüyün ifa etdikləri muğam və xalq mahnıları könülləri oxşadı...

Çıxış edənlər kitab haqqında təəssüratlarını, Şamillə bağlı düşüncələrini dinləyənlərlə bölüşdülər...

Tədbir Dostluq mədəniyyət mərkəzində oldu...

*ƏLİ RZA*

Kredo.- 19 yanvar.- 2022- ci il.- S. 16.